# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan regionlarında insan kapitalının təşəkkülünün potensial mənbələri (sosioloji həmsərhəd fənn nəzəriyyələrindən strateji yönümlü sosial texnologiyaların işlənib hazırlanmasına doğru)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əzimova Rəfiqə Cəlil qızı**
Qrantın məbləği: **20 000 manat**
Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/75-M-41**
Müqavilənin imzalanma tarixi: **03 oktyabr 2011-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 noyabr 2011-ci il – 1 noyabr 2012-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|

Tərtib olunmuş illik plan üzrə aşağıda qeyd olunan elmi tədqiqat işləri yerinə yetirilmişdir:

*Nəzəri ədəbiyyatın icmalı və analizi; metodoloji əsaslar və metodlar işlənilmiş; tədqiqatlarla bağlı indikatorların və sorğu anketlərinin kompleks şəkildə işlənib hazırlanmışdır.*
*Müasir nəzəri ədəbiyyatın icmalı və analizi əsasında "İnsan potensialı insan kapitalının formalaşmasının fundamental əsası kimi" məqalə hazırlanmışdır (müəllif – layihə rəhbəri – R.C. Əzimova). Məqalə hesabata əlavə olunur.*

*Tədqiqatın ciddi şəkildə əsaslandırılması üçün elmi-metodoloji əsaslar hazırlanmış və burada üç elmi tezis irəli sürülmüşdür:*

- *XXI əsri informasiya və sürətlər əsri kimi qiymətləndirirlər. İnsanın bu yeniliklərə, bu*

sürətlərə uyğunlaşması müasir insandan böyük məharət (daxildən gələn səylər) və çeviklik tələb edir. Çünki bir çox mürəkkəb sistemlərlə yanaşı İnsan özü özündə mürəkkəb bir sistemdir. Yəni insan mütləq və nisbi dəyərlərin daşıyıcısıdır. İnsanın cəmiyyət üçün nisbi dəyəri (faydası, gətirdiyi xeyri) onun mütləq dəyəri ilə (insan özü özlüyündə dəyərdi) üzvü bağlılıq təşkil edir. Bunu nəzərə alsaq, deməli mütləq dəyər kimi insanın reallizasiyası onun nisbi, yəni cəmiyyət üçün, dəyərli olması təşkil edir.

- Layihənin əsas elmi ideyası məhz insanın mürəkkəb sistem kimi inkişafı ideyasıdır, çünki məhz insanı mürəkkəb sistem kimi qəbul edərək, onun potensialını daha geniş açmaq mümkündür. Bu ideyadan çıxış edərək layihənin hazırlanmasında biz bir sıra müasir metodoloji prinsipləri nəzərə almışıq. Onlardan: sosioloji nominalizm və sosioloji fenomenologiya nəzəriyyələridir (Berger, Luman, Turen, Y.Xabermas, E.Toffler, J.Toşenko, Yadov və b.). Sosioloji nominalizm bir prinsip kimi ən öncə insana müraciət edərək hesab edir ki, şəxsiyyət real həyatda həlledici əhəmiyyət kəsb edir və "insan cəmiyyətdə" fenomeni həm insan, həm cəmiyyət haqqında düşünməyə imkan yaradır. Bir sıra müasir XX-ci əsrin qərb sosioloqları (P.Sorokin, A.Turen, Z.Bauman, P.Berger və b.) haqlı olaraq hesab edirlər ki, dünyaya gələn insan inkişaf prosesində cəmiyyətdə özünü təsdiqləmək naminə bir sıra keçid mərhələləri yaşayır. Həyat göstərir ki əksər halda özünü təsdiqetmə prosesi onun iradəsindən, fəaliyyətindən və məqsədyönlü aksiyalardan asılıdır. Təsadüfi deyil ki, XX-ci əsrin sonunda və XXI-ci əsrin əvvəlində "həyat sosiologiyası" sosiologiya elminin mərkəzi anlayışına çevrilmişdir. Burada həmçinin görkəmli sosioloq P.Sorokin "sistemin avtonomiyası" nəzəriyyəsində vacib bir qənaətə gəlir ki, hər bir sistem o cümlədən də fəaliyyətdə olan "insan sistemi" onun daxilinə xas olan enerji potensialı aparıcı amildir.

2 Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirilməli)

- Layihənin kompleks tədqiqatları ilə bağlı indikatorların işlənilməsi ilə bağlı aşağıdakı treninqlər keçirilmiş:

02/11/2011

1. Yaş qrupunun müəyyənləşdirilməsi (sosioloji və sosial-psixoloji tədqiqat).
2. Tədqiqatın seçimlərinin müəyyən etmək (yaş, keyfiyyət və kəmiyyət), yeniyetməlik dövrü – erkən və sonrakı dövr (5-9 siniflər).
3. Ailənin statusu, yeniyetmənin fiziki sağlamlığı, təhsil ocağının psixoloji durumu, yeniyetmələrin maraqlara meylilik və bu səpkidə təhlil indikatorlarının müəyyənləşdirilməsi.

18/11/2011
Gündəlik.
İkinci treninqin mövzusu: sosioloji tədqiqat məkanın konkretləşdirilməsi.
Çıxış edir layihə rəhbəri – Əzimova R.C.

Artıq sosioloji tədqiqatımızın ünvanlarını bu gün konkretləşdiririk. Burada yeniyetmələrin (9-11-ci sinif şagirdlərinin) fiziki, mənəvi və intellektual potensialını üzə çıxartmaq tədqiqatımızın mərkəz problemidir. Bununla bağlı yeniyetmənin inkişaf prosesində mikromühitlərin dəqiqləşdirilməsi tədqiqatımız üçün olduqca vacibdir.

Süleymanov Ə.D.: (sosioloq)

Mən düşünürəm ki, yeniyetmələr ilə bağlı tədqiqatımızın çıxış nöqtəsi bilavasitə ailə mikromühiti ilə bağlıdır. Məlumdur ki, uşaq və yeniyetmənin cəmiyyətə adaptasiyası ailə mühitində başlanır. Bununla bağlı tədqiqatımızda ailənin daxili ünsiyyət formaları, onların uşaqlara münasibəti

*tədqiqatın mərkəzində dayanmalıdır.*
*Əzimova R.C.:*
*Məsələ ilə bağlı layihə iştirakçıları tərəfindən hazırlıq mərhələsi işlənilməlidir. Ən öncə ardıcıllıqla yeniyetmənin ətraf mühiti onun valideynləri, müəllimləri, tibbi və mədəni mikromühitini təşkil edən kadrlarla görüşləri keçirmək ön plana. Bu bizə imkan yarada bilər ki, tədqiqatın gələcək mərhələlərində qarşıya qoyduğumuz məqsədyönlü vəzifələri lazımı səviyyədə keçirdə bilək.*
*Məcidova S.M.: (psix.e.d, professor)*
*Hesab edirəm ki, yuxarı siniflərdə oxuyan yeniyetmələrlə şəhər və kənd mühitində bizim tərəfimizdən ilkin müşahidələr aparılmalıdır. Belə müşahidələr bizə imkan yarada bilər ki, onlarla gələcək tədqiqatlarımızı daha dəqiq və məqsədyönlü qura bilək.*
*Ələkbərova M.S.: (ali dərəcəli həkim-pediatr)*
*Mənə belə gəlir ki, yeniyetmələrin anaları ilə onların övladlarının sağlamlığı barəsində ilkin ümumi söhbət bizə kömək edə bilər.*
*Zeynalabdinova Ə.X.: (şöbənin dissertantı, psixoloq)*
*Rəfiqə xanım, müəllimlər ilə də ilkin tanışlıq, bizim tədqiqatımızın məqsədi ilə onları tanış etmək yerinə düşərdi.*
*Abbasov İ.Ə.: (sosioloq)*
*Sahə tədqiqatlarının seçim prosesinin metodoloji təhlili:*
*a) Yeniyetmələrin mənəvi əhatə dairəsi – yəni yeniyetmənin əhatə dairəsini bilavasitə submədəniyyətinin tərkib hissəsidir. Submədəniyyətin açıqlanma mexanizmlərinin işlənilməsi tədqiqatımızın daha dərin və daha dolğun yerinə yetirilməsinə imkan yaradacaq.*

*23/11/2011*
*Gündəlik.*
*Əzimova R.C.:*
*Fərz edirəm ki, bizim ilkin addımlarımız şəhər və kənd əhalisinin rəyinin öyrənməsi işi təşkil edir. Məhz ilkin tanışlıqdan sonra biz anketlərin ilkin variantlarının hazırlanmasına və müzakirəsinə başlamalıyıq. Burada hər bir anketlə bağlı mən həm mövzunu, həm predmetini nəzərdə tuturam. Belə ki, psixoloji seqmenti (Ailə, Səhiyyə, Təhsil, Submədəniyyət) üzə çıxartmaq problemi önə çıxır.*
*Abbasov İ.:*
*Mən deyərdim ki, yeniyetmələr arasında gələcək peşə yönümünün dərk etməsi bacarığı, bu bacarıq potensialını aşkar etmək də çox vacibdir.*
*Məcidova S.:*
*Ümumiyyətlə, yeniyetmənin ümumi ətraf mühitini görmək olduqca vacibdir. Onların asudə vaxtlarına, mənəvi dəyərlərə (musiqi, kino, teatr və dini dəyərlərə) münasibətləri.*
*Süleymanov Ə.:*
*Anketin iş variantını hazırlayarkən gördüm ki, bloklarla çox böyük sorğu alınır. Uşağın tərbiyyə olunmasında əsas rolu ana oynayır. Analar ilə sorğu aparmaq istərdim. Ailənin demoqrafik faktorlarını (ixtisası, təhsili, neçə ildir ki evlidirlər, qohum nigahları və s.). Ailənin psixoloji və sosioloji momentlərinin araşdırmaq. Uşaqların və valideynlərin sağlamlıq səviyyəsinin öyrənilməsi. Həm ailə ilə, həm müəllimlər ilə ciddi işləmək istəyirik.*
*Ələkbərova M.:*
*Mən hesab edirəm ki, bizim həm müşahidə, həm sorğularımız əsas bir prinsipə söykənməlidir: yeniyetmələrlə ünsiyyət formaları olduqca böyük bir həssaslıqla aparılmalıdır (onları həyəcan və əsəbdən qorumaq naminə).*
*Abbasov İ.Ə.:*
*Submədəniyyət durumunu aşkara çıxartmaq yollarında zənnimcə daha produktiv fokus qruplar*

*içərisində keçirtmək daha məqsədə uyğundur.*
*Növbəti treninq üçün anketlərin son variantını müzakirəsi və təsdiqlənməsi.*

*9/12/2011*
*I. Anketlərin son variantlarının müzakirəsi və təsdiqlənməsi.*
1. *məktəb müəllimləri ilə bağlı sosioloji anket 25 sualdan ibarətdir və onu Lənkəran şəhəri və kəndlərində, Lerik rayonu və kəndlərində istifadə etmək olar;*
2. *uşaqların fiziki sağlamlığı ilə bağlı sorğu anketi və metodoloji vəsaitləri artıq işlənib və hazırdır;*

*14/12/2011*
a) *ailə ilə bağlı sosioloji sorğu anketi hazırlanıb və 50 sualdan ibarətdir (təklif olundu ki, sualları imkan dairəsində ixtisara salmaq);*
b) *yeniyetmələrin sosial-psixoloji vəziyyəti ilə bağlı sorğu-anketi hazırdır;*
c) *rayonun sosioloji infrastrukturu ilə tanışlıq (sosial işçilərin, məktəb psixoloqlarının mövcudluğu).*

*21/12/2011*
*Sorğuların keçirilməsi mexanizmləri:*
a) *İcra Hakimiyyəti, Bələdiyyə, Təhsil, Səhiyyə, Ailə İnfrastrukturları ilə tanışlıq və layihənin məqsədləri haqqında qısa informasiyanın çatdırılması;*
b) *kənd sosiologiyası - sosiologiyanın bir qolu kimi. Kənd mikromühiti yeniyetmənin pozitiv və dolğun həyat qabiliyyətinin və həyat fəaliyyətinin bünövrəsi kimi. Kənd mühitinin spesifik xüsusiyyətləri, orada fəaliyyətin iş üsulları ilə sıx bağlıdır (əkinçilik, fermerlik, xalq yaradıcılığı və s.);*

*28/12/2011*
*Süleymanov Ə.:*
*Ailə ilə bağlı sorğu-anketi hazırlamışam, amma bir qədər ixtisara salınmalıdır. Gələcək treninqə qədər çalışaram məsələni həll edim.*
*Məcidova S.:*
*Orta məktəb şagirdlərinə ünvanlanan sorğu anketi hazırdır və pilotaj sorğu keçirmək olar.*
*Zeynalabdinova Ə.:*
*Müəllimlərə ünvanlanan sorğu-anketin iş variantını bu gün təqdim edirəm. Çalışaram gələn görüşümüzə onun son variantını təqdim edəm.*
*Abbasov İ.:*
*Submədəniyyət məsələlərinin şəhər və kənd mühitində səmtləşdirilmiş müsahibə üsulu ilə aşkara çıxartmaq daha səmərəli olardı. Bununla bağlı yaxşı olardı ki, fokus qrupların kənd mühitində təşkilini həyata keçirdək.*

*06/01/2012*
*Tədqiqatın əsas çıxış nöqtəsi: müəllimlər ↔ şagirdlər ↔ valideynlər (onların düşüncələri). neçə yaşında ailə həyatı qurulub. Əsas vəzifəmiz tədqiqatı eyni zamanda və paralel olaraq keçirtməkdən ibarətdir. Artıq işimizi yerlərdə başlandıqdan sonra, yəni praktika zamanı (ardıcıllıq, paralelik məsələləri) dəqiqləşdirməyə cəhd göstərəcəyik.*

*12/01/2012*
*Ailə ilə bağlı sorğu-anketin son variantının müzakirəsi və qəbul olunması haqqında.*
*Qərara alındı:*
1. *Ə. Süleymanovun ailə ilə bağlı sorğu-anketinin son variantı yerlərdə sorğunu keçirmək üçün*

qəbul olunsun.
Yeniyetmələrlə bağlı sosial-psixoloji sorğu-anketinin müzakirəsi və qəbul olunması haqqında.
Qərara alındı:
2. S. Məcidovanın yeniyetmələrlə bağlı sorğu-anketi yerlərdə keçirilməsi üçün qəbul olunsun.

23/01/2012
Yeniyetmələrin fiziki sağlamlığı ilə bağlı sorğu-anketin son variantının müzakirəsi və qəbul olunması haqqında.
Qərara alındı:
M. Ələkbərovanın yeniyetmələrin fiziki sağlamlığı ilə bağlı sorğu-anketi yerlərdə keçirilməsi üçün qəbul olunsun.
Müəllimlərlə bağlı sorğu-anketin son variantının müzakirəsi və qəbul olunması haqqında.
Qərara alındı:
Ə. Zeynalabdinovanın müəllimlərlə bağlı sorğu-anketi yerlərdə keçirilməsi üçün qəbul olunsun.
Yeniyetmələrin submədəniyyətinin sorğu-anketin son variantının müzakirəsi və qəbul olunması haqqında.
Qərara alındı:
İ.Abbasovun yeniyetmələrin submədəniyyətinin sorğu-anketi yerlərdə keçirilməsi üçün qəbul olunsun.

23/02/2012
Tədqiqat olunan sahədə ictimai nümayəndələr ilə görüşlər və layihənin əsas məqsədlərinin məzmunu ətrafında çıxış və müzakirələr aparılmışdır: (Əzimova R.C., M.Ələkbərova, Ə.Süleymanov, İ. Abbasov)
a) Lənkəran şəhərinin İcra Hakimiyyəti nümayəndələri ilə görüş və layihənin məqsədləri və plan üzrə görə biləcəyimiz işlər haqda.
Görüşdən sonra H.Əliyev adına parkda ulu öndərin H.Əliyev heykəli qarşısında güllərin qoyulması və şəkil çəkdirilməsi.
b) Günortadan sonra Lənkəran Özəl Türk Liseyinin rektoru R.Əliyev ilə görüş və müasir təhsil problemləri ətrafında dialoq aparılmışdır.

24/02/2012
Lənkəran şəhərinin 4 nömrəli məktəbin pedaqoji kollektivi ilə layihənin əsas məqsədləri ilə bağlı ümumi tanışlıq. Məktəb iki dildə (azərbaycan və rus) 1500 nəfər şagirdi əhatə edir. Görüş vaxtı saat 10:00-13:00.
Şagirdlərin kompleks metodu ilə təhsil və tərbiyə problemləri ətrafında canlı maraqlı dialoq alındı.
Günün ikinci yarısında 9 və 21 nömrəli məktəblərin pedaqoji kollektivi ilə layihə ilə bağlı geniş söhbət. Hər iki məktəb köhnə tipli məktəblərdir və qış üçün isitmə sisteminin olmaması problemi gözə çarpmışdır.

25/02/2012
a) Xocalı soyqırımı gününə həsr olunmuş heykəlinin yad edilməsi.
b) Humanitar kollecin musiqi şöbəsinin müdiri Fikrət m. və tələbələri ilə tanışlıq. Layihə ilə bağlı məsələlər ətrafında dialoq.
c) Uşaq Diaqnostik Mərkəzində baş həkim müavini olan Gülnar xanımla ətraflı söhbət.

25/03/2012
Lənkəran ş. Kərgəlan və Aşağı Nüvədi kəndlərinin ailələrində sosioloji sorğuların başlanması və analarla müsahibələr. (Əzimova R.C., Süleymanov Ə., Məcidova S.)
Lənkəran ş. 4 nömrəli məktəbində 8-11 sinif şagirdlər arasında sosioloji sorğu və psixoloji

testləşmə başlanılmışdır. Həmin məktəbdə müəllimlərin sorğu anketləri ilə sorğular aparılmışdır. Lənkəran ş. 1, 7 və 10 nömrəli məktəblərində 8-11 sinif şagirdlər arasında sosioloji sorğu və psixoloji testləşmə başlanılmışdır. Həmin məktəbdə müəllimlərin sorğu anketləri ilə sorğular aparılmışdır.

15/04/2012
Lənkəran ş. Digah, Nərimanabad və Şilavar kəndlərinin məktəblərində 8-11 sinif şagirdləri arasında sosioloji sorğu və psixoloji testləşmə, sağlamlıqla bağlı müayinə və müəllimlərlə sorğu anketləri ilə sorğular aparılmışdır.
Aprelin 15-nə artıq 220 şagird sosioloji sorğu anketi ilə və testləşmə üsulu ilə əhatə olunmuşdur.

**2-3 May** ayı tarixində Lənkəran şəhərinin 1 saylı və 7 saylı orta məktəblərində müəllimlər və şagirdlər arasında sosioloji sorğu anketlərinin toplanması. (Məcidova S. , Zeynalabdinova Ə.)
**21-23 May** ayı tarixində Lerik rayonunda (Məcidova S. , Zeynalabdinova Ə. , Əzimova R.)
1. İcra başçısının nümayəndəsi Arzu xanımla tanışlıq və layihənin mahiyyəti haqqında qısa məlumatlandırılmışdır.
2. Lerik rayonun bir sıra məktəblərində müəllim və şagirdlər arasında anket sorğuları keçirilmişdir:
- Lerik rayonu 1 saylı texniki fənlər liseyində anket məlumatlarının toplanması.
- 3 saylı internat məktəbdə anket məlumatlarının toplanması.
- 9 saylı orta məktəbdə müəllim və şagirdlər arasında anket sorğuları məlumatları toplanmışdır.

**İyun ayında** Lənkəran şəhərində ailələrdə analar arasında sorğunun aparılması və anketlərin toplanması; mədəni məkanın öyrənilməsi və mövzu ilə bağlı sorğu anketləri toplanmışdır. (Süleymanov Ə., Abbasov İ., Əzimova R.)
**İyul ayında** Lerik rayonunda ailələrdə analarla görüşlər və sorğu anketləri toplanmışdır. (Süleymanov Ə.);
Mədəni məkanın öyrənilməsi ilə bağlı sorğu anketləri toplanmışdır. (Abbasov İ.)

3 Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

"Azərbaycan regionlarında insan kapitalının təşəkkülünün potensial mənbələri (sosioloji həmsərhəd fənn nəzəriyyələrindən strateji yönümlü sosial texnologiyaların işlənib hazırlanmasına doğru)" (1 noyabr 2011-ci il – 1 noyabr 2012-ci il) həyata keçirilmiş layihənin nəticələri aşağıdakılardır.
Layihədə plan üzrə tərtib olumuş tədqiqatın (sahələr üzrə) nəticələri.

a) yeniyetmələrin (9-11 siniflər) sağlamlığı ilə bağlı 100 nəfər respondentlər arasında aparılmış tədqiqatın nəticələri:
yeniyetmələrin sağlamlıq səviyyəsi fərdi yanaşma əsasında, xüsusi işlənilmiş anketlərlə ali dərəcəli pediatr M.Ələkbərova tərəfindən keçirilmiş və aşağıdakı nəticələr əldə olunmuşdur.
Belə ki, 100 şagird arasında aparılmış hərtərəfli müayinə göstərmişdir ki, müayinədən keçən respondentlərin 51 % **vegetativ damar distaniyasından** əziyyət çəkirlər. Belə bir vəziyyətin vaxtında qarşısı alınmazsa, gələcəkdə bir sıra xəstəliklərə gətirə bilər.
Müayinədən keçən yeniyetmələrin içində 21% nevroz və 20 % qastritdən əziyyət çəkənlərdir. Anketlər və cədvəllər məqaləyə əlavə olunur.

b) məktəbli yeniyetmələrin (9-11 sinif) psixo-emosional durumu 290 şagirdlər içərisində xüsusi işlənilmiş sorğu anketləri ilə və qismən Lyuşer metodikası ilə psixologiya elmləri doktoru, prof. S. Məcidova tərəfindən keçirilmişdir. Sorğuların analizi göstərdi ki, respondentlərin 45% qədər dəqiq elmlərə üstünlük verir. Bununla belə, Konstitusiya fəninə maraq isə demək olar ki, təxmini 1%-dir və bu marağın davamı kimi respondentlərin qanunlara münasibətləri xeyli dərəcədə

düşündürəndir. Belə ki, sorğuda iştirak edən respondentlərdən, qanundan yayınma meylləri təxmini 52% təşkil edir. Diqqəti cəlb edən "Azərbaycandan getmək istəyi" sualına verilən cavablardır. Getmək istəyən respondentlər 50% təşkil edir, 6% respondentlər isə cavab verməyə çətinlik çəkirdilər. "Azərbaycandan getmək istəyi" sualına səbəb kimi "dünya görüşünü genişləndirmək – 9 %, səyahət etmək -15% və düşündürən "neqativ münasibətlər" – 36% (!) təşkil edir. Sorğuda yeniyetmələrin psixo-emosional durumu ilə bağlı bir sıra verilən suallar və cavablar hesabatda daha geniş şəkildə təqdim olunmuş cədvəllərdə və mövzuya həsr olunmuş "Şagirdlərin psixo-emosional durumu və sistem münasibətlərinin analizi" məqaləsində əks edilmişdir. Anketlər və cədvəllər məqaləyə əlavə olunur.

c) Müəllimlərin professionallıq və psixoloji durumu psixoloq Zeynalabdinova Ə. tərəfindən işlənərək xüsusi anketlər yolu ilə sosioloji sorğular və fərdi ünsiyyət üsulları ilə 169 müəllim arasında keçirilmişdir. Nəticələr ümumiləşdirilmiş şəkildə cədvəllərdə və məqalə şəklində təqdim edilmişdir. Nəticələri analiz etdikdə aydın olur ki, müəllimlərin işdən narazılığın əsas səbəbləri: əmək haqqının az olması (52%),
inkişaf imkanının olmaması (19%),
pedaqoji fəaliyyətə marağın olmaması (14%); Bütövlükdə bu üç neqativ meyillərin faiz səviyyəsi, demək olar ki, düşündürəndir, çünki belə bir əhval-ruhiyyə ilə məktəb mühitində fəaliyyət göstərən müəllimlər şagirdlərə xeyirdən çox ziyan gətirə bilər. Hal hazırda belə bir vəziyyət narahat edicidir və yaxın gələcəyimiz üçün köklü dəyişiklikləri zəruri edir. Anketlər və cədvəllər məqaləyə əlavə olunur.

d) Ailə mühiti və bilavasitə ailədə anaların övladlarına qarşı münasibətini və bu münasibətin köklərinin (anaların mövcud olan təhsil, mədəniyyəti, həssaslıq) problemlərini sosiologiya üzrə fəlsəfə doktoru, dosent Ə. Süleymanov müşahidələr, fərdi ünsiyyət və anketlər metodları ilə 153 ailədən olan analarla keçirilmişdir. Nəticələr ümumiləşdirilmiş şəkildə cədvəllərdə və məqalə şəklində təqdim edilmişdir.
Pilot sorğuların nəticələri göstərdi ki, sorğuda iştirak edən 153 analardan

- 54% - orta təhsilli,
- 48% - evdar qadın,
- qohumlu nigahdan olan analar - 25%;
- analar tərəfindən övladlarına nəzərət ya çox zəifdir, yaxud heç yoxdur - 50%;
- uşaqlara fiziki güç tətbiqi təxmini - 53 %;
- ailələrdə uşaqların dərsliklərdən başqa ev kitabxanasına əlavə kitab alınıb və oxunulması yox dərəcəsindədir;
- etikadan kənar (ləyaqətsiz sözlərin) uşaqlarlın yanında ailə mühitində işlənilməsi təxmini - 48%.

Sorğuların nəticələri daha geniş şəkildə cədvəllərdə və məqalə şəklində təqdim edilmişdir.

e) Şəhər və kəndlərin mədəni məkanının vəziyyəti və imkanları, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru İlham Abbasov tərəfindən - müşahidələr, fərdi ünsiyyət və anketlər metodları ilə 104 gənc arasında keçirilmişdir. Pilot sorğuların nəticələri göstərdi ki, sorğuda iştirak edən 104 məktəbli (9-11-ci sinif) şagirdlərin əksəriyyəti:

- Təhsilin onların gələcək həyatında vacib yer tutur – 96-97%.
- Təhsilin vacib olmasının səbəblərini cavablandırarkən 72-73% respondentlərin gələcəkdə vəzifə tutmaq məqsədini güdür.
- Karyera üçün -18,05%.
- Cəmiyyətdə özünü təsdiq etmək - təxmini - 66%.
- Zəngin olmaq – təxmini – 34%.

- *Erkən nigahlara münasibət – 78% mənfi, müsbət – 13-15%.*
- *Dünya görüşü deyəndə siz nəyi başa düşürsünüz sualına:*
  - *Dünya ayrı-ayrı ölkələrdən ibarətdir - təxmini – 62%*
  - *Dünya mədəniyyətlərdən ibarətdir - təxmini – 25%*
  - *Mən dünyanın bir hissəsiyəm - təxmini – 20%*
- *Hansı ədəbiyyatla maraqlanırsınız sualına:*
  - *Dini kitabları – təxmini - 55%*
  - *Bədii ədəbiyyat - 35%*
  - *Başqa janrlarda ədəbiyyat - 21 %*

*Valideyn və məktəblilərlə fərdi ünsiyyət göstərdi ki, ictimayəti düşündürən problemlərdən biri - narkomaniyanın gənclər arasında gizli şəkildə yayılmasıdır. Bəzən narkomaniyanın yayılması nəzarətin nəzarətçilər tərəfindən olduqca zəif, və yaxud heç olmamasıdır. Bu suala cavab verənlər - 5,5 %-ə qədərdir.*

*Kəndlərdə asudə vaxtın keçirilməsi (idman seksiyaları, futbol meydançaları, gənclər və valideynlər üçün ictimai mühitdə birgə tədbirlərin keçirilməsi üçün mədəni məkan) demək olar ki, yox vəziyyətindədir.*

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. Layihə üzrə iş ərzində "İnsanşünaslıq - XXI əsrin elmidir" (azərb.dilində) adlı monoqrafiya çapa verilib. Müəllif R.C. Əzimova
2. "Ailə, təhsil, mühit zəncirvarı əlaqələr zəifləyib" adlı məqalə çapdan çıxıb (fevral 2012). Müəllif R.C. Əzimova
3. Layihə ilə bağlı problemlər üzrə aparılan tədqiqatlar əsasında məqalələr layihə üzvləri tərəfindən çapa hazırlanır.

5 İxtira və patentlər, səmərələşdirici təkliflər

----------------

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

Ezamiyyətlər Lənkəran şəhərinin və onun Nərimanabad, Digah, Şilavar, Kərgəlan, Aşağı Nüvədi kəndlərində; Lerik rayonunun orta məktəblərində və Vistan kəndində keçirilmişdir.

Ezamiyyətlər 2012-ci ilin fevral ayından 2012-ci ilin iyun ayına qədər davam etmişdir.

7 Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

----------------

8 Layihə üzrə digər tədbirlərdə iştirak

Plan üzrə Lənkəran və Lerik şəhərində layihə üzvlərinin şəhər və kəndlərin icra nümayəndələri və bələdiyyə işçiləri ilə görüşlər. Məktəblərdə müdiriyyət və müəllim kollektivləri ilə görüş və müzakirələr keçirilmişdir. Layihənin yekun nəticələri barədə 2012-ci ilin 16 oktyabr tarixində Lənkəran şəhərinin Gənclər Mərkəzində şəhərin İcra nümayəndəsi, bir sıra məktəblərin müəllim və psixoloqları, səhiyyə işçiləri və bilavasitə həkim-pediatrların iştirakı ilə dəyirmi masa keçirilmişdir. Layihədə bir sıra problemlərin tədqiqi, təhlili və nəticələri ətrafında geniş müzakirələr aparılmışdır.

9 Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.

| | |
|---|---|
| | çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | ------------------- |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | ------------------- |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | --------------------- |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | --------------------- |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | --------------------- |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | --------------------- |
| 15 | Təcrübə artırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | --------------------- |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | Alınan nəticələr Elm Fondunun mülkiyyəti olduğuna görə mövzu ilə bağlı məqalələr, kütləvi informasiya vasitələrində çıxışlar yaxın gələcəkdə planlaşdırılır. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

____________________
*(imza)*
" __" ________ 201_-ci il

Dəsdəmirova X.: (Kafil).

**Baş məsləhətçi**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
" __" ________ 201_-ci il

İCRAÇI:

**Layihə rəhbəri**
Əzimova Rəfiqə Cəlil qızı

____________________
*(imza)*
" __" ________ 201_-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

(Qaydalar üzrə Əlavə 16)

Layihənin adı: **Azərbaycan regionlarında insan kapitalının təşəkkülünün potensial mənbələri (sosioloji həmsərhəd fənn nəzəriyyələrindən strateji yönümlü sosial texnologiyaların işlənib hazırlanmasına doğru)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əzimova Rəfiqə Cəlil qızı**
Qrantın məbləği: **20 000 manat**
Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/75-M-41**
Müqavilənin imzalanma tarixi: 03 oktyabr 2011-ci il
Qrant layihəsinin yerinə yetirilmə müddəti: 12 ay
Layihənin icra müddəti (başlama və bitmə tarixi): 1 noyabr 2011-ci il – 1 noyabr 2012-ci il

## 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
|---|---|
| | Layihənin əsas təcrübi nəticələri aşağıdakılardır:<br>1. 9-11-ci siniflərdə yeniyetmələrin fiziki sağlamlığının durumu (vegetativ-damar distaniyası 50%-dən çox) narahatçılıq doğurur;<br>2. 9-11-ci siniflərdə yeniyetmələrin psixoloji durumu;<br>3. Məktəb müəllimlərin müəllim peşəsinə və müəllimlərin tələbələr haqqında mülahizə və rəyləri; |

| | | |
|---|---|---|
| | 4. Ailələrdə analarla valideynlər haqqında müsahibə və söhbətlər<br><br>5. Kənd mühitində mədəni məkanın mövcud olmaması və gənclərin asudə vaxtlarını keçirmək mühitinin yox dərəcəsində olması layihənin əsas nəticələri yekun elmi-texniki hesabatda daha geniş əks olunub. | |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) | |
| | Layihənin nəticələrinin həyata keçirilməsi ilə bağlı bir sıra nəzərdə tutulmuş təkliflər müvafiq dövlət orqanlarına çatdırmağa nəzərdə tutulur. Onlardan:<br><br>Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq şöbəsinə;<br><br>Azərbaycan Respublikasının Təhsil Nazirliyinin elmi şöbəsinə;<br><br>Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müvafiq şöbəsinə. | |

### 2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | a) Mövzu ilə bağlı layihənin nəticələri dəqiq olaraq "Kənd həyatının sosiologiyası" gələcəkdə elmi tədqiqat mövzusu kimi planlaşdırılır;<br><br>b) Kompleks tədqiqat nəticəsində işlənilən təkliflər, layihədə planlaşdırılmış kimi, müvafiq yerli və mərkəzi orqanlarına (Təhsil, Səhiyyə və Mədəniyyət Nazirliklərinə) göndəriləcəkdir. Hesabatda təkliflərdən ən önəmlisini burada açıqlamaq istərdik:<br><br>1. Kəndlərdə *HUMANİTAR PSİXOLOJİ MƏRKƏZLƏRİN* açılması müasir dövrdə Dövlətin təxirə salınmaz vəzifələrindən biri kimi çıxış edir. Bölgələrdə "Bilik cəmiyyətin" fəaliyyəti bərpa olmasına böyük ehtiyac duyulur.<br><br>2. Kəndlərdə *HUMANİTAR PSİXOLOJİ MƏRKƏZLƏRİN* açılması ilə bağlı tezliklə bu mərkəzlər üçün sahə üzrə (sosioloq, psixoloq, həkim) kadrların məqsədyönlü hazırlanması regionlarda şəhər və kənd həyatının mədəni-psixoloji durumun sağlamlığına və neqativ halların öncə qarşısını almağına gözə çarpacaq dərəcədə təkan ola bilər. |

**SİFARİŞÇİ:** **İCRAÇI:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**

Həsənova Günel Cahangir qızı

_____________________

*(imza)*

" __" ________ 201_-ci il

**Baş məsləhətçi**

Babayeva Ədilə Əli qızı

_____________________

*(imza)*

" __" ________ 201_-ci il

**Layihə rəhbəri**

Əzimova Rəfiqə Cəlil qızı

_____________________

*(imza)*

" __" ________ 201_-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
(Qaydalar üzrə Əlavə 17)

Layihənin adı: **Azərbaycan regionlarında insan kapitalının təşəkkülünün potensial mənbələri (sosioloji həmsərhəd fənn nəzəriyyələrindən strateji yönümlü sosial texnologiyaların işlənib hazırlanmasına doğru)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: Əzimova Rəfiqə Cəlil qızı
Qrantın məbləği: **20 000 manat**
Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/75-M-41**
Müqavilənin imzalanma tarixi: **03 oktyabr 2011-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): 1 noyabr 2011-ci il – 1 noyabr 2012-ci il

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş Çapa hazırlanır |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar<br><br>həmçinin, xaricdə çap olunmuş | | "İnsanşünaslıq-XXI əsrin elmi kimi" (8ç.v.) Əzimova R.C. | Hazırlanmış məqalələr əsasında "Müasir kəndin humanitar problemləri (sosial-psixoloji aspektlər)".Layihə iştirakçılarının kollektiv monoqrafiyası |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Məqalələr həmçinin xarici nəşrlərdə | "İnsan potensialı insan kapitalının formalaşmasının fundamental əsası kimi". Əzimova R.C. | | |
| | | "Yeniyetmələrin fiziki sağlamlığı - psixoloji durumun mənbəyi kimi". Ələkbərova M. | | |
| | | "Münasibətlər sisteminin analizi və şagirdlərin psixi-emosional durumu" Məcidova S. | | |
| | | "Müəllimlər insan kapitalının daşıyıcısı kimi" (sosial-psixoloji təhlil).Ə.Zeynalabdinova | | |
| | | "Azərbaycan ailələrində yeniyetmələrin formalaşmasında anaların rolu" Süleymanov Ə. | | |
| | | "Kənd həyatında mədəni məkan problemi və gənclərin asudə vaxtının keçirilməsi". Abbasov İ. | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfrans materiallarında | Multimədəniyyət həyat dispozisiyalarının spesifik özünüifadəsi kimi. Bakı Beynəlxalq Humanitar Forum. Bakı 05.10.12 Əzimova R.C. | | |
| 4. | Məruzələrin tezisləri<br><br>həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |

| | | | | |
|---|---|---|---|---|
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

_______________
*(imza)*
" __ " ________ 201_-ci il

Daşdəmirova X. /[signature]/.

**Baş məsləhətçi**
Babayeva Ədilə Əli qızı

_______________
*(imza)*
" __ " ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əzimova Rəfiqə Cəlil qızı oğlu

_______________
*(imza)*
" __ " ________ 201_-ci il